# Qəbələdə FHN əməkdaşlarının respublika çempionatı başa çatıb

Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşları arasında beşnövçülük üzrə keçirilən respublika çempionatına






yekun vurulub.

FHN-in İdman Sağlamlıq Klubunun və FHN İşçilərinin Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə Mülki Müdafiə Qoşunlarının Qəbələ rayonundakı "N" saylı hərbi hissəsində keçirilən yarışda nazirliyin müxtəlif qurumlarını təmsil edən 16 komandanın tərkibində 80 idmançı iştirak edib. İdmançılar iyulun 4-dən 7-dək davam edən yarışların maneələr zolağı, turnikdə güc çalışmaları, atıcılıq, üzgüçülük və dağa dırmanma mərhələləri üzrə bacarıqlarını nümayiş etdiriblər. Əvvəllər ölkəmizdə bu yarışlar iki mərhələ üzrə keçirilib. Lakin, bu il ilk dəfə olaraq FHN əməkdaşlarının ölkə çempionatının proqramına dağa dırmanma, turnikdə güc çalışmaları və maneələr zolağı növləri də əlavə olunub. Bu idman növləri idmançılardan daha çətin şəraitdə güc və bacarıq nümayiş etdirmək, gərgin mübarizə aparmaq tələb edib.

FHN-in İdman Sağlamlıq Klubunun rəisi, polkovnik Füzuli Musayev, FHN İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev çıxış edərək, ölkəmizdə ilk dəfə keçirilən və böyük marağa səbəb olan bu yarışın əhəmiyyətindən, idmanın inkişafı istiqamətində görülən işlərdən, FHN əməkdaşlarının uğurlarından danışıblar.

Bildirilib ki, FHN əməkdaşlarının baş verə biləcək fövqəladə hadisələrə hazırlığını bir daha yoxlamaq məqsədilə dağlıq və meşəlik ərazidə, çətin şəraitdə keçirilən bu yarışda FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşı Teymur Şahlamazov qızıl, Aran Regional Mərkəzinin işçisi Zeynal Zeynalov gümüş, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin əməkdaşı Adəm Haqverdiyev bürünc medal qazanıb. Həmçinin əldə etdiyi yaxşı nəticələrə görə Mülki Müdafiə Qoşunlarının komandası birinci, FHN-in İdman Sağlamlıq Klubunun komandası ikinci, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının komandası üçüncü yeri tutub. İdmançılara diplom, kubok, medallar və qiymətli hədiyyələr təqdim edilib.

FHN-in qurumları arasında ilk dəfə keçirilən beşnövçülük çempionatının uğurla başa çatdığını nəzərə alan yarışların Təşkilat Komitəsi bu idman tədbirini ənənəvi olaraq hər il keçirməyi qərara alıb.

**Fotolar İlkin Vəlizadənindir.**
**"Qəbələ"**

# Beynəlxalq Skaut Düşərgəsi təşkil olunub

***Skaut hərəkatı ilk dəfə 1907-ci ildə Böyük Britaniyada Lord Baden Pauell tərəfindən yaradılmışdır. Hərəkat qısa müddət ərzində bütün dünyada geniş yayılaraq, gənclər arasında çox məşhurlaşmışdır. Hazırda 216 dünya ölkələrindən 35 milyon uşaq, yeniyetmə və gənc onun sıralarında birləşərək, «Hər gün bir xeyirxah iş görək» devizi altında fəaliyyət göstərirlər. Yarandığı dövrdən indiyədək planetimizin 300 milyondan çox sakini skaut hərəkatının üzvü olmuşdur.***

Qəbələ rayonunun Bum qəsəbəsində Azərbaycan Skautlar Assosiasiyası tərəfindən Respublika Gənclər və İdman Nazirliyinin dəstəyilə "Wonderland 2017-Azərbaycan" Beynəlxalq Skaut Düşərgəsi təşkil olunub.



Beynəlxalq düşərgəyə Azərbaycanın müxtəlif rayonlarından, eləcə də Polşa, Türkiyə, Gürcüstan, Ukrayna və Misirdən iştirakçı qatılıb.

İyulun 2-də Bum qəsəbəsində keçirilən açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni və Skautların Himni səsləndirilib.



Sonra Azərbaycan Skautlar Assosiasiyasının prezidenti İlyas İsmayıllı ölkədə təşkil olunan ilk skaut düşərgələrinin tarixi haqqında məlumat verib. O, qeyd edib ki, ilk "Wonderland" adlı beynəlxalq skaut düşərgəsi 2013-cü ildə Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Şəkidə təşkil olunub. 2014-cü ildə dünyanın bütün qitələrindən skautlar Azərbaycanın cənubuna, 2015-ci ildə Gədəbəy rayonuna və 2016-cı ildə isə Gəncəyə toplanıb.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev Beynəlxalq Skaut Düşərgəsinin açılış mərasimində iştirak edərək, iştirakçıları salamlayıb, onlara uğurlar arzulayıb.

**Fotolar İlkin Vəlizadənindir.**
**"Qəbələ".**

# Seminar keçirilmişdir

***Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə Qəbələ rayonunda dövlət qulluqçuları üçün seminar keçirmişdir. Seminara rayon icra hakimiyyətinin əməkdaşları, inzibati ərazilər üzrə nümayəndələr, Qəbələ Regional "Asan xidmət" Mərkəzinin işçiləri dəvət olunmuşdur.***





Seminarı Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır. Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasının dövlət idarəçilik modeli: ölkənin nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında", akademiyanın professoru, Milli Məclisin deputatı Elman Nəsirov "Beynəlxalq vəziyyət və Azərbaycan Respublikası hökumətinin xarici siyasəti", akademiyanın dosenti Rəcəb Rəhimli "Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində innovativ metodların tətbiqi" mövzularında məruzə etmişlər.

Azərbaycan Respublikası Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məsul işçisi Cahangir Hacıyev dövlət qulluqçularının maarifləndirilməsi sahəsində Dövlət İdarəçilik Akademiyası ilə birlikdə həyata keçirilən layihənin əhəmiyyətindən danışmış, gələcəkdə bu layihələrin əhatə dairəsinin daha da genişlənəcəyini bildirmişdir.

Seminarı rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova yekunlaşdırmış, tədbirin təşkilatçılarına təşəkkürünü bildirmişdir.

**Fotolar İlkin Vəlizadənindir.**
**"Qəbələ"**